Rza Əli oğlu Mirzadə

# HƏYAT HEKAYƏLƏRİM

Rza Mirzadə

# Həyat hekayələrim

«Издательские решения»

**Mirzadə R. Ə.**

Həyat hekayələrim / R. Ə. Mirzadə — «Издательские решения»,

ISBN 978-5-00-599805-7

Dəyərli Oxucularım!Bu balaca kitabda, bir insan kimi fərmalaşmağımda mənə böyük kömək olan nəslimin dəyərli nümayəndələrinin bəziləri haqqında qısa məlumat və həyatımın müxtəlif vaxtlarnda yaşadığım həyat hekayələrimi toplamışam.Qiymətli vaxtınızı ayırıb oxuduğunuza görə sizə təşəkkür edirəm.Kitab haqqında fikirlərinizi şərhdə yazarsanız, məni çox sevindirərsiniz.Dərin hörmətlə,Rza Mirzadə

ISBN 978-5-00-599805-7

© Mirzadə R. Ə.
© Издательские решения

# Həyat hekayələrim

# Rza Əli oğlu Mirzadə

© Rza Əli oğlu Mirzadə, 2023

ISBN 978-5-0059-9805-7
Создано в интеллектуальной издательской системе Ridero

Dəyərli Oxucularım!

Bu balaca kitabda, bir insan kimi fərmalaşmağımda mənə böyük kömək olan nəslimin dəyərli nümayəndələrinin bəziləri haqqında qısa məlumat və həyatımın müxtəlif vaxtlarnda yaşadığım həyat hekayələrimi toplamışam.

Qiymətli vaxtınızı ayırıb oxuduğunuza görə sizə təşəkkür edirəm.

Kitab haqqında fikirlərinizi şərhdə yazarsanız, məni çox sevindirərsiniz.

Dərin hörmətlə,

Rza Mirzadə

**Babam – Seyid Müseyib Seyid Hüseyn oğlu Mirzadə**

Babam, Seyid Müseyib Seyid Hüseyn oğlu Mirzadə 1885-ci ildə Laçın rayonunun Seyidlər kəndində anadan olmuşdur.

Seyid Müseyib bölgənin sayılan seyid nəsillərindən biri olan Rzalar nəslinin nümayəndəsidir. Atası Seyid Hüseyn və babası Seyid Məşədi Mirəli bölgənin ən tanınmış simalarından biri olmuşdular. Mirzadə ailəsi həm də bölgənin ən varlı ailələrindən biri olmuşdur.

Seyid Hüseynin həyat yoldaşı, yenə bölgənin ən hörmətli şəxslərindən biri olan Seyid Kərbalayı Məhəmmədin qızı Seyid Pəri olmuşdur. Burda xatırlatmalıyıq ki, deyilənə görə, o dövrdə Qubadlıda yaşamış xalq qəhrəmanı Qaçaq Nəbinin «Boz at"ını ona Seyid Kərbalayı Məhəmməd bağışlamışdır. Seyid Kərbalayı Məhəmməd bölgənin ən tanınmış din xadimlərindən biri olmuşdur.

Seyid Müseyibin atası Seyid Hüseynin 5 övladı olmuşdur. Bunlar yaş sırasıyla Seyid Həmid, Seyid Müseyib, Seyid Muxtar, Seyid Zeynal və Seyid Səriyyə idilər.

Seyid Müseyibin böyük qardaşı Seyid Həmid 1905 və 1918-ci illərdə ermənilərin Azərbaycan Türklərinə qarşı başlatdıqları xəyanətkarcasına basqınların qarşısını almaq üçün silahlı dəstə təşkil etmiş və uzun illər mənfur düşmənə qarşı qəhrəmancasına mübarizə aparmişdir. Seyid Həmidin dəstəsində özündən kiçik qardaşları Seyid Müseyib və Seyid Muxtar da qəhrəmancasına vuruşmuşdular. Dəstənin silah-sursat və ərzaq təchizatını Seyid Müseyib təşkil etmişdir.

Məhz Seyid Həmid və bölgədəki bir neçə başqa xalq qəhrəmanlarına aid dəstələrin qəhrəmanlığı sayəsində erməni quldurları Laçın bölgəsində məhv edilmiş və mənfur düşmən torpaqlarımızdan qovulub çıxarılmışdır.

Düşməni torpaqlarımızdan qovub çıxardıqdan sonra, Seyid Həmid Azərbaycan Xalq Cümhuriyyətinin Zəngəzur qəzası rəhbərliyində yer almışdır. Azərbaycan dövlətinə qarşı çıxan daxili quldurlara qarşı amansız olmuş, onlarla axıra qədər mübarizə aparmışdır. Seyid Həmid həm də qəzanın bir neçə bölgəsində, tikinti işlərinə rəhbərlik etmiş, Laçının bir çox kəndindəki mühüm obyektlərin tikintisini o təşkil etmişdir.

Seyid Müseyibin böyük qardaşı Seyid Həmid 1938-ci ildə sovet höküməti tərəfindən (kqb) Şuşa rayonunun Turşsu kəndi yaxınlığında öldürülmüşdür. Qədirbilən yerli camaat sovet quldurlarının təqibinə baxmayaraq, gecə vaxtı Seyid Həmidin meyidini gizlicə vurulduğu yerdən götürərək, qayalıqların arasında dəfn etmişlər. Seyid Həmidin məzarı dəqiq bilinməməklə yanaşı, təxmini olaraq Laçın rayonunun Köhnəkənd kəndi ətraflarındadır.

Seyid Müseyibin özündən kiçik qardaşı Seyid Muxtar, AXC dövründə polis olmuş və 1919-cu ilin yayında Laçın rayonunun Uzunyal adlanan yaylağında dövlətə tabe olmayan, camaata zülm edən quldurlarla çıxan döyüşdə, həmin quldurlar tərəfindən öldürülmüşdür. Məzarı Laçın rayonu, Seyidlər kəndində, kənd qəbiristalığındadır.

Seyid Müseyibin kiçik qardaşı Seyid Zeynal isə bir neçə il Bakıda neft hasilatı ilə məşğul olan şirkətlərdən birində çalışmışdır. Təəssüf ki, Seyid Zeynal çox gənc yaşlarında burada xəstələnmiş, öz doğma kəndinə qayıtmış və təxminən 1917-ci ildə Seyidlər kəndində vəfat etmişdir. Məzarı Seyidlər kənd qəbiristanlığındadır.

Seyid Müseyibin bacısı Seyid Səriyyə 1984-cü ildə Laçın rayonu, Alıqulu kəndində vəfat etmiş, Alıqulu kənd qəbiristanlığında dəfn olunmuşdur.

Seyid Müseyibın həyat yoldaşı, yenə bölgənin ən varlı şəxslərindən biri olmuş, Seyid Hacı Mirəziz oğlu Seyid Həsənəlinin qızı Seyid Zəhra idi.

Seyid Müseyib və Seyid Zəhranın 4 övladları olmuşdur. Bunlar, Seyid Hüseyn (1923—1947), Seyid Pəri (1926—1986), Seyid Əli (1929—2019) və Seyid Zeynal (1931—2015) idilər.

Seyid Müseyib Ağdam şəhərində dini təhsil almiş və orta təhsilli din xadimi olmuşdur. Təhsili orta olsa da, ali təhsilli din xadimləri səviyyəsində elmə yiyələnən Seyid Müseyib, siyasi cəhətdən də çox fəal olmuşdur.

Seyid Müseyib Mirzadə o vaxtlar Azərbaycan siyasi mühitində xüsusi yerə sahib olan Azərbaycan İttihad partiyasının Zəngəzur qəzasında partiyanın qurucularından biri olmuşdur.

O, 1931-ci ildə siyasi fəaliyyətinə görə həbs olunmuşdur. Ağdam şəhərində 4 ilə yaxın həbsdə qaldıqdan sonra, 1934-cü ildə öz doğma yurduna qayıtmış və siyasi fəaliyyətinə qaldığı yerdən davam etmişdir.

Seyid Müseyib Seyid Hüseyn oğlu Mirzadə, 1937-ci ilin avqust ayında Laçın rayonunda həbs olunmuş və həmin il, sentyabr ayının 26-da, Xankəndində (o vaxt Stepanakert adlanırdı), Azərbaycan SSR XDİK üçlüyünün qərarı ilə həbs olunaraq 8 il müddətinə sürgün edilmişdir.

O xalqımızın düşmənləri – Kaqan, Popov, Sayadyan vs tərəfindən mühakimə olunub həbs olunmuşdur.

1960-cı ilin iyunun 14-də, Azərbaycan SSR Ali Məhkəməsi, 1937-ci ilin sentyabr ayının 26-da Azərbaycan SSR XDİK üçlüyünün, Mirzadə Seyid Müseyib Seyid Hüseyn oğlu ilə bağlı aldığı qərarı ləğv edərək, işlərin sübuta yetmədiyi üçün, xətm olunmasını qərara almışdır.

Bu haqda akademik Ziya Bünyadovun, 1993-cü ildə nəşr olunan «Qırmızı terror» kitabının 254-262-ci səhifələrində ətraflı məlumat verilmişdir.

**Azərbaycan Qadınının tariximizdə yeri**

Bu hadisəni, hadisənin iştirakçısı olan mənim Zəhra nənəm (atamın anası – Seyid Zəhra Seyid Həsənəli qızı Mirzadə) anama danışıb. Anam da mənə (Rza Əli oğlu Mirzadə) nəql edib.

Təxminən 1919-cu ilin payızı olardı. Erməni-Türk müharibəsi davam edirdi. Seyidlər kəndinin bütün əli silah tutanları Seyid Həmidin dəstəsində, Laçının Hoçaz, Sadınlar, Malıbəyli, Qarıqışlaq, Minkənd və s ətraf kəndlərində düşmənə qarşı döyüşürdülər.

Ermənilər rusların da köməkliyi ilə (indi olduğu kimi – RM) bizimkilərdən daha yaxşı silahlansalar da, xalqımızın qeyrətli oğulları onların irəliləməsinə imkan vermir, düşmənə layiq olduğu cavabı verirdilər.

Müharibənin qızğın vaxtlarıydı. Bir neçə gün əvvəl xəbər almışdıq ki, düşmən güclü müqavimət göstərir və Hoçaz istiqamətində irəliləməyə çalışır. Ancaq son iki-üç gün idi ki, cəbhədən heç bir xəbər almırdıq.

Kənddə ən çox narahat olan, üç oğlu (Seyid Həmid, Seyid Müseyib, Seyid Muxtar) döyüşdə olan qaynanam Seyid Pəri idi.

Seyid Pəri çox ağıllı, qoçaq, güclü və qürurlu bir qadın idi.

Elə hey evin qabağına çıxar (Seyidlər kəndindəki evimiz kəndin ortasındaydı. Evin qabağından kəndin Laçın tərəfdən girəcəyi, Qaraçöllük və Bilildüz kəndindən gələn yol görünürdü), var-gəl edər, öz-özünə nəsə danışar və əllərini göyə açıb dua edərdi.

Günortadan sonra, daha doğrusu, axşama yaxın idi, Seyid Pəri xala evin qabağında gəzinirdi. Mən də qapıda oturub müharibədəki igidlərimizi fikirləşirdim. Kəndin qabağından bir atlının gəldiyini gördüm. Seyid Pəri xalaya atlını göstərdim və sevincək, «inşallah bizimkilərdən yaxşı xəbər gətirər», dedim.

Atlı novlu bulağın yanından keçib kəndin ortasına çatdı. Cəbhədən xəbər gözləyən kənd əhli sürətli şəkildə kəndin ortasına yığışdı. Bizim ev onsuz da kəndin ortasında idi. Seyid Pəri xalayla mən atlının kim olduğunu öyrənmək üçün onun dayandığı yerə daha da yaxınlaşdıq. Amma, bu atlı bizimkilərdən deyildi. Çünki, onu heç kim tanımırdı. O isə bizim kəndi və kənd əhlini tanıyırdı.

Üzünü Seyid Pəri xalanın dayandığı yerə tərəf tutub: «Ay Seyid Pəri xala, məni Seyid Həmid göndərib. Cəbhədə vəziyyət çox pisdi. Düşmən bizə güc gəlir. Sabaha, birisi günə bura çatarlar. Seyid Həmid dedi ki, nənəmə və kənd əhlinə de, yüngül əşyalarını götürüb üzü çay aşağı qaçsınlar».

Atlının bu sözlərini eşidən kənd əhli, biz də daxil olmaqla, həyacanlanmağa, narahat olmağa başladıq. Təşvişə düşmüşdük. Atlı bu xəbəri çatdırıb, gəldiyi istiqamətdə də gözdən itmişdi. Əşyaları toplamaq və hazırlaşmaq üçün hərə öz evinə dağıldı. Mən də, ağır-ağır evimizə tərəf yönələn Seyid Pəri xalanın arxasınca getməyə başladım. Evimizə çatdıq. Seyid Pəri xala qapıda var-gəl edirdi. Ağbəniz çöhrəli bu cəsur qadının sifəti qap-qara qaralmışdı.

Seyidlər kəndini isə qadınların həyacanlı səsləri, uşaq çığırtısı bürümüşdü. Məlum ki, hamı kənddən çıxmağa hazırlaşırdı.

Birdən Seyid Pəri xala nəsə tapmış kimi, özünəməxsus cəld hərəkətlə üzünü mənə çevirdi. «Get mənim çuxamı gətir, özün də qalın geyin. Heç bir yerə çıxmayacağıq. Uşaqlardan xəbər gələnə qədər kəndin girişlərində keşik çəkəcəyik. Düşmən gəlsə ölənə qədər onlarla vuruşacağıq».

Mən, bu cəsur qadına bələd olsam da, belə çətin vəziyyətdə bu qərarı alacağını gözləmirdim. Üzünü mənə çevirib bayaq dediyini bir də təkrar etdi: «Sən içəridən iki balta da götür, əynini qalın geyin gəl kəndin ortasına. Heç kim kənddən çıxmayacaq». Həmişəki kimi qətiyyətli və özünəməxsus sərt idi.

Özü kəndin mərkəzinə keçib kənd əhlini yenidən ora yığdı. Mən tələsik qalın paltarlarımı geyindim. Seyid Pəri xalaya da isti paltarlar götürdüm. İki baltanı əlimə alıb, camaatın yığışdığı yerə gəldim.

Hamının yığışdığını görən Seyid Pəri xala sözə başladı: «Ay camaat, mən bayaq gələn o gədəyə inanmadım. Əgər vəziyyət onun dediyi kimi pis olsaydı, Həmid onu yox, öz döyüşçülərindən birini göndərərdi. Burda nəsə düşmən barmağı var. Gedin əyninizi qalın geyinin, uşaqları sakitləşdirin əlinizə nəyiniz varsa; balta, dəhrə, yaba və s alın gəlin bura. Bu gecə sabaha qədər kəndin girəcəklərində keşik çəkəcəyik. Düşmən gəlsə ölənəcən onlarla vuruşacağıq. Seyidlərə erməni ancaq bizim hamımız öldükdən sonra girə bilər».

Seyidlər kəndinin camaatı, həm özü, həm də həyat yoldaşı Seyid Hüseyn (Seyid Hüseyn Seyid Məşədi Mirəli oğlu) mötəbər bir ailədən olan Seyd Pəriyə inanır və onun hörmətini saxlayırdı. Ona görə də kənd camaatının heç biri dillənmədi. Hərə sakitcə evlərinə dağıldı.

Bir azdan kəndin yeriyə bilən bütün qadınları və qocaları əllərində dəhrə, balta, yaba bizim yanımızda idilər. Seyid Pəri xala kənd əhlini üç hissəyə bölüb, hər bir hissəni kəndin girişlərinə (kəndin 3 əsas girişi var: Çay tərəfdən, Qaraçöllükdən və arxa – Pircahan tərəfdən) göndərdi. Biz ikimiz də, bir neçə kəndçi ilə, düşmənin kəndə girmə ehtimalı daha böyük olan Qaraçöllük tərəfə getdik. Payız vaxtları olduğuna görə gecə soyuq olsa da, heç kim üşümürdü. Elə bilki ki, hamı Seyid Pəri xalanın o çıxışının təsirindəydi. Hamının üzündən cəsarət, düşmənə nifrət oxunurdu. Hamı bir-birinə ürək-dirək verir, dua oxuyurdu. Beləcə səhərə qədər keşik çəkdik.

Səhər yenicə açılırdı. Aralıda kəndə doğru çapan bir atlı göründü. Yaxınlaşanda atlının Seyid Həmidin döyüşçülərindən biri olduğunu gördük. Salamlaşdıqdan sonra üzünü Seyid Pəri xalaya tutub,

«Ay Seyid Pəri xala burda niyə durmusuz?», deyə soruşdu. Seyid Pəri xala hadisəni olduğu kimi danışdı. Döyüşçü, iki-üç gündür cəbhədə qızğın döyüşlər getdiyini bildirdi. Ancaq Seyid Həmidin dəstəsinin bu dəfə də düşmənə ağır zərbə vurub kəndlərimizdən qovub çıxardığını bildirdi.

Seyid Pəri xala əllərini göyə açıb, «Allahım sənə şükürlər olsun ki, dünən mənim ağlımı almadın. Kəndi çıxmağa qoymadım».

Kənd əhli sevinc içindəydi. Hamı Seyid Həmidə və onun igid döyüşçülərinə dua edir, düşmənləri lənətləyirdi.

Bu hadisədən bir müddət sonra erməni quldurlarına qarşı vuruşan Seyid Həmid və bölgədəki o biri igid komandanların dəstələri düşməni torpaqlarımızdan tamamı ilə qovub çıxarmışdılar.

Onu da deyim ki, müharibədən sonra Seyid Həmid, Seyidlər kəndində vahimə yaradıb, kəndi talan etməyi planlaşdıran adamın kim olduğunu bilmiş və ona layiq olduğu cavabı vermişdi.

**Tədris ocaqları həyat məktəbləridir. Unudulmaz müəllimim – Professor Burhan Aytuğ**

Tədris ocaqları – orta və ali məktəblər – təkcə akademik bilik mənbələri yox, insanı formalaşdıran həyat məktəbləridir. Əgər bu məktəb səviyyəli məktəb, ordakı müəllimlər də əsl müəllimlərdirsə, onda o məktəblərdən məzun olanların əksəriyyəti cəmiyyət üçün yararlı insanlar olaraq məzun olacaqlar. Əks təqdirdə nəticə ürəkaçan olmayacaq.

Mən, istər 1 – 7-ci sinifləri oxuduğum ilk məktəbim olan Laçın rayonu, Alıqulu kənd 8 illik məktəbi olsun, istər 7 – 10 – cu sinifləri oxuduğum Pircahan kənd orta məktəbi olsun, istərsə də ali təhsil aldığım İstanbul Universiteti Meşəçilik fakültəsi olsun, bu hər üç təhsil ocağında təhsil aldığım üçün özümü şanslı sayıram.

Bu gün, universitet illərimdən yaddaşımda savadlı elm adamı, mükəmməl insan, dəyərli müəllim kimi həkk olunan bir müəllimi böyük hörmətlə yad edirəm. Mənim müəllimim və diplom işimin qeyri-rəsmi məsləhətçisi, Türkiyədə palinologiya (polen və sporlar haqqında elm) elminin banisi, iki dönəm İstanbul Universiteti, Orman Fakültəsi dekanı olmuş, uzun illər Botanika Kafedrasının müdiri işləmiş professor Burhan Aytuğdur.

Burhan hocam, mənim yaddaşımda təkcə savadlı elm xadimi kimi yox, ədalətli, sadə, mədəni, xeyirxah, vətənpərvər bir insan kimi qalıb. Çox şanslıyam ki, Burhan Aytuğ hocamın fakültədə sonuncu semestr ders verdiyi tələbələr arasında mən də olmuşam.

# Конец ознакомительного фрагмента.

Текст предоставлен ООО «ЛитРес».

Прочитайте эту книгу целиком, купив полную легальную версию на ЛитРес.

Безопасно оплатить книгу можно банковской картой Visa, MasterCard, Maestro, со счета мобильного телефона, с платежного терминала, в салоне МТС или Связной, через PayPal, WebMoney, Яндекс.Деньги, QIWI Кошелек, бонусными картами или другим удобным Вам способом.